HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

*30 noyabr 2017-ci il*
*№020 (58)*

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / *qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur*

## ƏHMƏD ARSLAN: GÜRCÜSTAN, TÜRKİYƏ VƏ AZƏRBAYCANIN COĞRAFİ ÜSTÜNLÜYÜNDƏN İSTİFDƏ ETMƏK LAZIMDIR



Avropa və Asiyanı birləşdirən İpək Yolu tarixi yoldur və indi bu yolun bərpa olunması həyata keçirilir. Bu barədə Türkiyənin nəqliyyat naziri Əhməd Arslan bəyan edib.

Türkiyəli nazir deyib: “Türkiyə, Gürcüstan və Azərbycanın iştirakı ilə Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum enerji lyihələri artıq həyata keçirilib. Habelə Bakı-Tbilisi-Qars dəmir yolu magistralı. TANAP layihəsinin həyata keçirilməsi gedir. Bütün bu layihə və təşəbbüslər İpək Yolu konsepsiyasına daxildir”.

Əhməd Arslan İpək Yolunun şimal, cənub və orta dəhlizləri əhatə etdiyini vurğulayıb.

Türk nazir deyib: “Azərbaycan, Gürcüstan və Türkiyə orta dəhlizə aid ölkələrdir. Bizim mühüm coğrafi üstünlüyümüz var, biz bundan istifadə etməliyik. Bundan hər üç ölkə mənfəət götürəcək”.

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN LİMAN ƏMƏKDAŞLIĞINA DAİR MEMORANDUM İMZALAYIB

Tbilisidə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Anakliya Dəniz Limanı arasında əməkdaşlığa dair memorandum imzalanıb. Sənədi Anakliyanın İnkişafı Konsorsiumunun direktoru Levan Axvlediani və Bakı Beynəlxalq Dəniz Ticarət limanının baş direktoru Taleh Ziyadov imzalayıblar.

Verilən məlumata görə, memorandum Transxəzər dəhlizinin inkişafına və Anakliya limanının tikintisi başa çatdıqdan sonra yük daşınmaları üçün rəqabət mühitinin yaradılmasına istiqamətlənib.

Qeyd edək ki, Anakliya Dəniz Limnının tikintisi cari il dekabrın 20-də başlayacaq. Limanın 2021-ci ildə fəaliyyətə başlaması nəzərdə tutulur.

2 CÜTLÜKLƏRİN TƏKLƏNMƏSİ VƏ YA BOŞANMA

3 ANALAR ATA DA OLA BİLİR

4 KƏND YERİNİN YAĞIŞ OVQATI

5 İSLAM QADIN VƏ KİŞİ BƏRABƏRLİYİ HAQQINDA

6 CÜMLƏMİZİN CAVID QAPISI (vitraj)

7 ÇİBİN (*Hekayə*)

## KUMSİŞVİLİ: ÖLKƏLƏRİMİZ STRATEJİ LAYİHƏLƏR HƏYATA KEÇİRİR



Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə noyabrın 28-də Tbilisidə Gürcüstan Baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kumsişvili ilə görüşüb.

Dmitri Kumsişvili Azərbaycan nümayəndə heyətinin “İpək Yolu” beynəlxalq konfransında iştirakını alqışlayaraq vurğulayıb: “Gürcüstanın yaxın dostu və strateji tərəfdaşı olan Azərbaycanın nümayəndə heyətinin “İpək Yolu” beynəlxalq konfransında iştirakı bizim üçün çox vacibdir. Biz Azərbaycan ilə əməkdaşlığa böyük önəm veririk”.

Nazir bildirib ki, Azərbaycan ilə Gürcüstan regionda çox mühüm strateji layihələr həyata keçirirlər. Bunlardan biri də bu yaxınlarda açılışını etdiyimiz Bakı-Tbilisi-Qars dəmir yolu xəttidir.

Baş nazirin birinci müavini ölkələrimizin birgə iştirakı ilə daha böyük layihələrin həyata keçiriləcəyinə ümidvar olduğunu bildirib.

Ramin Quluzadə “İpək Yolu” beynəlxalq konfransının yüksək səviyyədə təşkilinə görə Gürcüstan tərəfinə minnətdarlıq edib. O, Azərbaycanın və Gürcüstanın birgə iştirakı ilə həyata keçirilən layihələrin əhəmiyyətini xüsusi qeyd edib. Azərbaycanın nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri bildirib ki, Azərbaycan Gürcüstan ilə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa xüsusi önəm verir.

Bakı-Tbilisi-Qars dəmir yolunun əhəmiyyətindən danışan nazir deyib: “Bu layihə təkcə bizim regionumuzun deyil, Avropa və Asiyanın inkişafında, əməkdaşlığımızın daha da dərinləşməsində mühüm rol oynayacaq. Bakı-Tbilisi-Qars regionda sülhə və tərəqqiyə xidmət edən bir layihədir”.

Nazir ölkələrimiz arasında səmərəli əməkdaşlığın davam edəcəyinə, bu əməkdaşlığın xalqlarımızın rifahını daha da yaxşılaşdıracağına inandığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## GÜRCÜSTAN PARLAMENTİ NİNO LOMCARİYANI XALQ MÜDAFİƏÇİSİ SEÇDİ



Gürcüstan parlamenti Nino Lomcariyanı Xalq Müdafiəçisi postuna seçib.

Parlament çoxluğu noyabrın 27-də qeyri-hökumət təşkilatlarının təqdim etdiyi namizədlər arasından Nino Lomcariyanı seçmişdi.

Parlament səsverməsində müxalif “Avropa Gürcüstanı” partiyasının nümayəndələri iştirak etməyib. Bununla belə müxalifətdə olan “Vahid Milli Hərəkat” partiyasının deputatları Lomcariyanın namizədliyini dəstəkləyiblər.

Fəaliyyətdə olan ombudsmen Uçi Nanuaşvilinin səlahiyyəti 2017-ci il dekabrın 1-də başa çatır.

Nino Lomcariya ixtisasca hüquqşünasdır. O, “Gürcüstanın gənc hüquqşünaslar assosiasıyası”nda, daha sonra “Ədalətli seçkilər və demokratiya” adlı QHT-də, son zamanlar isə dövlət audit rəhbərinin müavini vəzifəsində işləyib.

## BRÜSSELDƏ “ŞƏRQ TƏRƏFDAŞLIĞI” SAMMİTİ KEÇİRİLİB




Noyabrın 24-də Brüsseldə “Şərq tərəfdaşlığı” sammiti keçirilib. Sammitə Avropa Birliyinə üzv olan dövlətlərin və “Şərq tərəfdaşlığı” proqramının iştirakçısı olan ölkələrin liderləri və nümayəndələri qatılıb. Sammit çərçivəsində digər ölkələrin liderləri ilə yanaşı Gürcüstanın baş naziri Georgi Kvirikaşvili də çıxış edib.

Sammitdə Belarus prezidenti Aleksandr Lukaşenkonun iştirak etməməsi maraq doğurub.

Sammit çərçivəsində gələcək əməkdaşlığın inkişaf etdirilməsinə aid olan məsələlər nəzərdən keçirilib. Müzakirə olunan məsələlər əsasən güclü iqtisadiyyat, güclü idarəçilik, iqtisadiyyat və nəqliyyat sferasında əməkdaşlıq, vətəndaşlar arasında əlaqələrin möhkəmləndirilməsi kimi sahələri əhatə edib. 20 məsələdən ibarət bu məqsədlərin “Şərq tərəfdaşlığı” çərçivəsində 2020-ci ilədək həyata keçirilməsi nəzərdə tutulur.

Sammitin sonunda yekun bəyannaməsi qəbul olunub.



# CÜTLÜKLƏRİN TƏKLƏNMƏSİ VƏ YA BOŞANMA

Afiq MUXTAROĞLU
*amuxtaroglu@mail.ru*

**Bəs dünən deyirdin, daha doğrusu ağız-ağıza verib deyirdiniz: "getmə gözümdən, gedərəm özümdən". Ondan bir gün qabaq idi, ya sonra idi, – unutmuşam, – deyirdiniz ki, "sən daş qoyan yerə mən baş qoyaram". Bəs nə oldu, gözmü dəydi sizə? Bir-birinizə macal vermədən – "yağış yağar yer doymaz, mən səndən necə doyum?" – sayaqlayan siz deyildinizmi? "Bu yolda öldü var, döndü yox" – deyib, elin-obnın diqqətini çəkən də siz idiniz, deyəsən? İndi nə baş verdi, sizə cin-zadmı toxundu-nədi? İndi nə oldu ki, dünən bir-birinə "can" deyənlər bu gün bir-birinə düşmən kəsilib, "iti görüm, qurdu görüm, bircə onu görməyim" – deyib bir-birilə qanlı bıçaq olublar. Dünənki şirinlik nədən ağu-zəhrimara çevrilib? Bəs mən nə deyirəm, a sağ olmuş, mən də dünənki cütlükdən, bugünkü təklənmişlərdən elə bunu soruşmaq istəyirəm.**

Belə bir ağır girişdən sonra əsas mövzuya girişəcəyimi düşünsəm də, alınmadı. Və bu üzdən oxucudan üzr istəməkdən savayı bir yolumun qalmadığını da ovcumun içi kimi bilirəm. Ancaq oxucuların artıq söhbətin nədən getdiyini çoxdan anladığını da fəhm edirəm. Söhbətimizin ailədən, ailə dəyərlərindən ibarət olduğunu anladığınızdan yana sizə bir təşəkkür borcumun qaldığını da qulluğunuza ərz edim ki, bir-birimizi bir işarədən başa düşdüyümüz də anlaşılsın. Nədən ki, "mən arifəm, işarədən qananam" düşüncəsiylə yanaşdıqda, burada anlaşılmayacaq nəyinsə olmasını güman etməyin özü belə tərəfimdən oxuculara qarşı saygısızlıq olardı.

İndi mən durub buradaca qırdırlamasına desəm ki, bizim ənənəvi, mühafizəkar ailə kultumuz təhlükədədir, dağılır və ya dağılmaq üzrədir. Mənim belə deməyim qorxuram kimlər tərəfindənsə düzgün anlaşılmaya, fikrim başqa cür alqılana və mən haqlı olduğum halda, haqsız duruma düşəm. Sözün düzü, məni əndişələndirən yalnız budur. Bu məqamda müasir ailə barədə bir-iki fikir səsləndirməkdən özümü saxlaya bilmirəm. Dədə Ələsgərin "desəm öldürərlər, deməsəm ölləm" məntiqi köməyimə yetir və qanunlarımızın mənə bir söz azadlığı tanıdığını da yadıma salıb, qısa və kəskin deyirəm: müasir ailə evcik-evcik oynamaqdır, belə "fintiflyuşka"dır, canım sənə desin, oyun-oyuncaqdır, göz aldatmaq, görüntü yaratmqdır. Müasir ailə bu günə hesablanmış, müəyyən müddətə nəzərdə tutulmuş birlikdir. Mənim bədbin düşüncəmə görə, müsir ailə formalaşdırılarkən, nə keçmiş, nə də gələcək nəzərə alınmır. Keçmişin gələnəyi-görənəyi gerilik kimi dəyərləndirilərək bir kənara atılır, elə gələcəklə bağlı düşüncələrdə də fərqli mövqe yoxdur, indiki nəsil bunu beyninə artıq yük bilir.

Bu cür düşünən təkcə mən olsaydım, dərd yarı idi. Bu sahənin biliciləri də gələcək ailə barədə könülaçan proqnozlar söyləmirlər. Statistik məlumatların qorxunc gerçəkliyini də deyilənlərin üzərinə gəldikdə dəhşətli mənzərə ilə üz-üzə qalırıq. Ailələr dağılır, ailədaxili ziddiyyətlər dərinləşir, ailə zorakılıqları gündən günə artır, evlənən cütlüklərin sayında azalma, boşananların sayında isə artım qeydə alınır. Gerçək mənzərə belədir və mən bunları deməklə Amerika-zad da kəşf etmədiyimi düşünürəm. Həqiqət nə qədər acı olsa da, bu cürdür. Əgər mənim hətərən-pətərən danışdığımı düşünürsünüzsə, ölkəmizdə evlənənlərin və boşananların son illərdəki nisbətini müqayisə edin və özünüz bir nəticə çıxarın. Mən mübahisə zəminində həqiqətin ortaya çıxarılmasına hər zaman tərəfdaram və o üzdən də bu məqamda Gürcüstan Statistika Xidmətinin məlumtlarını diqqətinizə çatdırmağı boynumun borcu bilirəm. Buyurun, baxın: 2015-ci ildə 29,1 min, 2016-cı ildə isə 25,1 min nikahın qeydə alındığı bildirilir. 2015-ci ildə şəhərlərdə 17,1 min, kəndlərdə isə 12 min cütlüyün evləndiyi vurğulanır. 2016-cı ildə şəhərlərdə 14,9 min, kəndlərdə isə 10,1 min cütlük evlilik həyatına başlayıb. Ailə quranların sayında azalmanın baş verməsi göz qabağındadır. Paytaxtda 2015-ci ildə 8,2 minə qədər cütlük nikah bağladığı halda, 2016-cı ildə bu göstərici 7,3 minə düşüb.

2016-cı ildə son doqquz il ərzində ən yüksək boşanma göstəricisi qeydə alınıb. Rəsmi məlumata görə, 9,5 min cütlük yollarını ayıraraq boşanıb. Yaşadığımız Kvemo Kartli (Borçalı) bölgəsində də eyni mənzərədir. Diqqət yetirin: nikah 2 867, boşanma 982. Paytaxt Tbilisidə isə durum daha acınacaqlıdır. Burada boşananların sayı evlilik həyatına girənlərin sayının yarısını ötüb keçir, yəni hər qurulan iki aildən biri dağılır. Rəsmi rəqəmlər paytaxtımızda bu sahədə olan durumu belə ifadə edir: nikah 7 304, boşanma 3 688. Kiçik bir riyazi araşdırma aparmamız bölgələrdə qurulan hər üç ailədən birinin, şəhərlərdə isə yarıdan çoxunun dağıldığını müəyyənləşdirəməyə imkan verir.

P.S.

**Ailələr niyə dağılır? Bu suala birmənalı cavab vermək mümkün deyil. Sadəcə, bir neçə ipucu verməklə kifayətlənəcəm. Ailə quran cütlüklərin yollarını ayırmasına iqtisadi keçimsizlik, psixoloji gərginlik, dini, mədəni fərqlər və qloballaşma kimi amillər təsir göstərir. Bu səbəblərin sayını artırmaq da olardı, lakin onsuz da ağır olan mövzunun gərginliyini artırmamaq istəyim yazıma üç nöqtə qoymağın vaxtı çatdığını xatırlatdı...**

## GÜRCÜSTANDA BİRİNCİ ONLAYN KLİNİKA FƏALİYYƏTƏ BAŞLAYIB

Birinci gürcü onlayn klinikasının pasiyentləri videozəng vasitəsilə məsləhət almaq, məsafədən müalicə olunmaq, elektron resept almaq, göndərişyolu ilə və ya müstəqil olaraq həkimin qəbuluna yazılmaq imkanına malikdirlər. Bu ödənişli olsa da, onun qiyməti terapevt məsləhətinin dəyərindən ucuzdur.

"Tərəfdaşlıq fondu" dövlət təşkilatının başçısı David Saqanelidze qeyd edib: "Mühüm olan odur ki, ondan Gürcüstanda olan turistlərdən tutmuş hamı istifadə edə bilər. Belə ki, şirkətdə tərcüməçilər işləyirlər. O, yad ölkələrdə həkimə getməkdən çəkinən gürcü mühacirləri üçün də faydalıdır".

Arzulayan istənilən şəxs klinikanın rəsmi saytında qeydiyyat zamanı bir neçə sadə suala cavab verməklə və özünə uyğun paketi ödəməklə həkimlə əlaqəyə girib, sağlamlığına aid olan bütün suallara cavab ala bilər. Bu platforma həmçinin onlayn rejimdə ölkənin istənilən klinikasında istənilən həkimin qəbuluna yazılmağa imkan verir.

## MİLLİ QİYMƏTLƏNDİRMƏ VƏ İMTAHANLAR MƏRKƏZİ YENİ LAYİHƏYƏ BAŞLAYIR



Milli Qiymətləndirmə və imtahanlar Mərkəzi "Nəticəyə etibar et" adlı yeni layihənin gerçəkləşdirilməsinə başlayır. Bu barədə Milli Qiymətləndirmə və imtahanlar Mərkəzinin rəhbəri Maya Miminoşvili məlumat verib.

Onun sözlərinə görə, proqram özəl şirkətlərin, ali təhsil müəssisələrinin və müxtəlif təşkilatların arzusu ilə yaradılıb.

Maya Miminoşvili gələcəkdə layihənin namizəd və ixtisas seçimini təsdiqləməyi və bunun nəticəsində sertifikatlar verməyi də nəzərdə tutduğunu bildirib.

Maya Miminoşvili vurğulayıb: "Bu sənədlə iştirakçılar öz bacarıqlarını potensial işverənlərə təqdim edə biləcəklər. Milli Qiymətləndirmə və İmtahanlar Mərkəzi fərdi və korporativ iştirakçılara xarici dillər (alman, rus, fransız), ofis proqramları, gürcü dili və funksional yazı, dəftərxana vərdişləri və sair üzrə səriştələrini təsdiqləmək üçün testlər təqdim edəcək".

## GÜRCÜSTAN VƏ UKRAYNA VƏTƏNDAŞLARI ÖLKƏLƏRARASI SƏFƏRLƏRDƏ ŞƏXSİYYƏT VƏSİQƏSİNDƏN İSTİFADƏ EDƏCƏKLƏR

Ukrayna və Gürcüstanın baş nazirləri ölkələrini yalnız siyasi mənada deyil, sözün həqiqi mənasında yaxınlaşdırmaq qərarına gəliblər.

Ukrayna və Gürcüstan ölkələr arasında əlaqələri sadələşdirərək iki ölkə vətəndaşlarının bir-birlərini problemsiz ziyarət etmələri üçün gediş-gəlişin İD kartlar vasitəsilə olmasına qərar veriblər. Bu barədə Ukraynanın baş naziri Vladimir Qroysman Tbilisidə keçirilən mətbuat konfrasında məlumat verib.

Qroysman vurğulayıb: "Vətəndaşlarımız üçün ölkələrimiz arasında səfərləri sadələşdirmək gərəkdir. Biz vətəndaşlarımızın Gürcüstana asan səyahət etmələri üçün İD kartların tanınması ilə əlaqədar dialoqa başlamaq arzumuzu ifadə edirik".

## MOSKVA GÜRCÜSTANLA VİZA REJİMİNİ MAKSİMUM DƏRƏCƏDƏ YUMŞALTMAQ NİYYƏTİNDƏDİR

Moskva Gürcüstanla viza rejimini maksimum dərəcədə yumşaldacaq və onun tamamilə ləğvinə çalışacaq. Bu barədə Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin Gürcüstan baş nazirinin RF ilə qarşılıqlı münasibətlər üzrə nümayəndəsi Zurab Abaşidze ilə görüşündən sonra məlumat verib.

Karasin deyib: "Biz gec-tez iki qonşu dövlət arasında qaydalar əsasında vizasız rejimin möhkəmlənməsinə çalşacağıq. Hər şey regiondakı durumdan, terrorizmlə mübarizəyə dair razılaşdırılmış fəaliyyətdən asılıdır, region çox həssasdır və bizim sayıq olmamız gərəkdir".

Rusiya xarici işlər nazirinin müavini bildirib: "Biz viza rejimini maksimum dərəcədə yumşaldacayıq. Artıq Gürcüstan vətəndaşı RF-da yaşayan istənilən şəxsin dəvəti ilə səfər edə bilər. Düşünürəm ki, bu, hazırkı mərhələdə müvafiq variantdır".

Karasin son səkkiz ay ərzində 1,2 milyon Rusiya vətəndaşının Gürcüstana səfər etdiyini də vurğulayıb.

Xatırladaq ki, 2012-ci ilin martında Tbilisi birtərəfli qaydada Rusiya vətəndaşları üçün vizanı ləğv etmişdi. Rusiya tərəfi Gürcüstan vətəndaşları üçün viza rejiminin liberallaşdırılması üzrə bir sıra addımlar atsa da, onu tamamilə ləğv etməyib. Moskvada Gürcüstanla vizasız rejimin tətbiq olunmasına 2008-ci ildə Tbilisinin təşəbbüsü ilə dayandırılan diplomatik münasibətlərin yoxluğunun mane olduğunu vurğulayırlar.

## 9 875 GÜRCÜSTAN VƏTƏNDAŞI AVROPA BİRLİYİNDƏ VİZASIZ QALMA MÜDDƏTİNİ POZUB

Martın 28-dən oktyabrın 20-dək, yəni AB ilə vizasız əlaqələrin fəaliyyətdə olduğu müddətdə Şengen zonası ölkələrində olmaq imkanından 161 885 Gürcüstan vətəndaşı yararlanıb. Onlardan 9 875 nəfəri müəyyən olunmuş 90 günlük vizasız qalma müddətini pozub.

Gürcüstanın Avropa və Avroatlantik strukturlara inteqrasiya üzrə dövlət naziri aparatının məlumatına görə, qayda pozucularının sayı təxminən 6,1% təşkil edir.

Gürcüstanın rəsmi idarələrinə 9 875 vətəndaşdan neçəsinin Şengen zonasında qaldığı və neçəsinin vizasız rejim qaydalarına əməl etməklə üçüncü ölkəyə keçdiyi bəlli deyil.

Xatırladaq ki, AB və Gürcüstan arasında vizasız rejim 2017-ci il martın 28-dən fəaliyyətə başlayıb.

## BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU İLƏ SƏRNİŞİNLƏRİN DAŞINACAĞI VAXT BƏLLİ OLDU

"Bakı-Tbilisi-Qars dəmir yolu ilə sərnişinlərin daşınmasına 2018-ci ilin birinci yarısının sonunda başlanılacaq".

Bunu Türkiyənin nəqliyyat, dənizçilik və rabitə naziri Ahmet Arslan Gürcüstanın İctimai televiziyasına müsahibəsində bildirib.

Türkiyəli nazirin sözlərinə görə, Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihədir və turistlər üçün maraqlı olan şəhərləri əhatə edir. O, deyib: "Əminəm ki, bu yol həm sərnişinlər, həm də yüklərin daşınması üçün cəlbedici olacaq".

A.Arslan qeyd edib ki, BTQ-nin bir çox üstünlükləri var və dəmir yolu nəqliyyat xərclərini və yüklərin daşınma müddətini azaldır.

## TÜRKİYƏDƏN AZƏRBAYCANA BAKI-TBİLİSİ-QARS MAGİSTRALI İLƏ İLK YÜK QATARI YOLA SALINIB




Türkiyənin Mersin şəhərindən Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə Azərbaycana ilk yük qatarı yola salınıb.

Qatarın yola salınma mərasimi Mersin vilayətinin Tarsus rayonunda Yenicə dəmiryol stansiyasında baş tutub.

32 konteynerli 16 vaqondan ibarət qatar 650 ton soya cecəsi və keramika yapışqanını Bakıyadək 4 gün ərzində 2,1 min kilometr keçməklə qət edib.

Türkiyə dəmir yollarının nümayəndələri yeni magistralın köməyi ilə yüklərin Bakıya 75-80 saat, Türkmənistana 100 saat, Qazaxıstanın paytaxtı Astanaya isə 180 saat ərzində çatdırılmasının mümkün olduğunu bildiriblər.

Azərbaycandan Türkiyəyə göndərilən 30 konteyner yüklənmiş 15 vaqondan ibarət ilk yük qatarı noyabrın 4-də Mersinə çatmışdı.

Xatırladaq ki, Bakı-Tbilisi-Qars dəmir yolunun rəsmi açılışı oktyabrın 30-da Bakı Beynəlxalq Ticarət Limanında həyata keçirilmişdi.

## İRAN BTQ-NİN TƏBRİZƏ QƏDƏR UZADILMASINI TƏKLİF EDİR

İran Bakı-Tbilisi-Qars dəmir yolunun Təbriz şəhərinə qədər uzadılmasını təklif edib.

Bu barədə APA-nın Gürcüstan bürosuna açıqlamasında İranın yol və şəhərin inkişafı naziri Abbas Axundi deyib.

O bildirib ki, bu məsələ ilə bağlı Türkiyə tərəfi ilə müzakirə aparılıb və memorandum imzalanıb: "Bu, çox böyük layihədir və üzərində iş gedir. Bu layihə reallaşsa, dairəvi dəmir yolu yaranacaq. İran və Türkiyə layihə üzrə işlər aparmaqla bağlı razılıq ifadə edib".

Cənub-Qərb nəqliyyat dəhlizinə toxunan A. Axundi onun çox uğurlu olacağını söyləyib: "Bu dəhliz region və dünyada olan dəhlizlərlə rəqabət apara biləcək. Əminəm ki, İran, Azərbaycan, Gürcüstan və Ukraynanın bu dəhlizlə bağlı əməkdaşlığı uğurlu olacaq."

O, İran və Azərbaycan arasında infrastruktur sahəsində əməkdaşlığın çox yaxşı davam etdiyini qeyd edib: "Astara-Astara dəmir yolunun tikintisi davam edir. Azərbaycan tərəfi ilə Astaradan Rəştə qədər olan dəmir yolunun tikintisinin maliyyələşdirilməsi ilə bağlı danışıqlar apardıq. Bununla bağlı memorandum imzalanıb. Layihə ilə bağlı müqavilənin imzalanması da nəzərdə tutulur. Bundan sonra Azərbaycan layihənin inkişaf etdirilməsində iştirak edəcək."

## ÇİN İPƏK YOLU ÇƏRÇİVƏSİNDƏ LAYİHƏLƏRİN GERÇƏKLƏŞDİRİLMƏSİNƏ 6 MİLYARD DOLLARDAN ÇOX YATIRIM QOYUB

Çin İpək Yolu çərçivəsində layihələrin gerçəkləşdirilməsinə 6 milyard dollardn çox yatırım qoyub.

Çinin kommersiya nazirinin müavini Syan Kemin Tbilisidə keçirilən beynəlxalq "İpək Yolu" forumunda "İpək Yolu" təşəbbüsünün Çin və bütün dünya üçün çox mühüm olduğunu vurğulayıb. O, deyib: "Son illərdə Çin şirkətləri və sahibkarları yol, dəmir yolu tikintisi sahəsində layihələrin gerçəkləşdirilməsi üçün müxtəlif ölkələrə 6 milyard dollardan çox yatırım qoyub, bu da ticarətin və adamların qarşılıqlı münasibətlərinə yardım edir".



Nazir müavininin sözlərinə görə, "İpək yolu" təşəbbüsü hal-hazırda yeni mərhələyə keçib, bu da gələcəyə yeni perspektivlər açır.

O, qeyd edib ki, "təşəbbüslərin məqsədi dünya miqyasında açıq və azad iqtisadiyyat yaratmaq, gələcək münasibətləri hamı üçün faydalı etməkdən ibrətdir, bu da yeni bazarlar əsasında inkişaf etməkdə olan ölkələrə xüsusilə kömək edəcək".

Syan Kemin Gürcüstanın "İpək Yolu" təşəbbüsünə tərəfdar olan ilk ölkə olduğunu vurğulyıb.

## ANALAR ATA DA OLA BİLİR



Həmid Sadıx

**Ana. Kimdir ana? Ana bizim hamımız ola biləcək biridir. Analar ata da ola bilir, bacı da ola bilir, qardaş da ola bilir. Çatışmayanımızın, olmayanımızın yerinə ola biləcək, əvəz edə biləcək bir universal, fövqəl insandır ana.**

Ana anadır. Ana Qardabanda da anadır, Marneulda da ,Axalsixedə də, Xaşurda da. Ən postmodern cəmiyyətlərdə də ana anadır. Bütün analar övladlarını sevirlər. Övladına biganə olan ata desəniz inanaram, ana yox. Ola bilər bir ana övladını qoyub getsin, ancaq mümkün deyil ki, o nə vaxtsa peşman olmasın, qayıtmasın, axtarmasın. Ana anadır. Anaya ən yaxşı tərif elə "Ana anadır" deməkdir.

Ən pis ana kimi tanıdığımız belə yaxşı anadır. Pis ana olmur. Bir qadın paxıl insan ola bilər, xain adam ola bilər, pis qonşu ola bilər, pozğun ola bilər, amma, pis ana ola bilməz.

Ən biganə bildiyimiz ana belə övladını sevir. Çünki, ana anadır.

Övladın ana üçün nə olduğunu həyatda da gördüm, həyatdan götürülmüş kitablardan da dərk elədim. Ananın necəliyini, ananın müqəddəsliyini, övladı üçün nələrə qadir olduğunu ilk öncə və ən çox öz anamda gördüm. Onun qabarmış,cadarlaşmış, torpaqdan qaralmış əllərindən oxudum, ara-sıra ağarmış tellərindən əzbərlədim, hər sevincində dərk etdim, hər göz yaşında yaddaşıma həkk etdim, hər toxunuşunda hiss etdim analığın nə olduğunu.

Ananın ana olduğunu "Səfillər"də də gördüm. Onda dərk etdim ki, ananın fransızı olmur. Ananın bəşəri olduğunu onda anladım. Onda bildim ki, ana Fransada da anadır.

Ananın ana olduğunu "Gün var əsrə bərabərdə" də öyrəndim. Onda bildim ki, ananın qorxanı-qorxmazı olmur. Övladı üçün ordunun üstünə də gedər, dünyanın sonuna da.

Ananın ana olduğunu "Dəmir Ledi"də də anladım. Marqaret Tetçerin oğlu hansısa Afrika ölkəsində şəxsi vertolyotu ilə qəzaya uğrayıb itir (bunu kimi bir şey olur). Bir neçə gün xəbər çıxmır. Deyilənə görə, Dəmir Ledi belə bir söz deyibmiş: "İlahi, mən onsuz necə yaşayacam". Onda bildim ki, dəmir ledi ola bilər bir qadın, ancaq dəmir ana ola bilməz. Onu bildim ki, analıq hissi bütün sosial təbəqələrdə eynidir.

Ananın ana olduğunu tarixdən də öyrəndim. Bütün dövrlərdə analar övladlarını eyni cür sevirdilər. Tarixə baxanda gördüm ki, analıq hissi zamana bölünmür. Zamanın dəyişə bilmədiyi bəlkə də yeganə bir hissdir analıq.

Ananın ana olduğunu fauna aləmində də gördüm. Şadlıq sarayının qarşısında bir maşın pişik balasının üstündən keçdi. Çabalayırdı. Anası o saat gəldi. Dili ilə balasının başına sığal çəkdi, çuxurundan pırtlayıb çıxmış gözünə sığal çəkdi, ağrısına sığal çəkdi, bir az keçdi cəsədinə sığal çəkdi. Onda analıq hissinin mənşəyə, növə bölünmədiyini gözlərimlə gördüm. Onda bildim ki, ana hər yerdə anadır, ana həmişə anadır.

Belə bir məsəl işlənir, "insan anadan yetim olur". Şəhriyar demişdi, "Anası olana yetim dimirlər". Doğrudur. İnsan anadan yetim olur, çünki, ananın yeri hər yerdən görünür, ananın yoxluğu o saat hiss olunur, çünki ana olanda hər yerdə olur. Yetimlik yoxluğun hiss olunmasıdır, kiminsə çatmamasının dərkidir. Övladın hər zərrəsində ananın əl izi var, əlinin hənirtisi var, səyası var.

Sinif rəhbərim Solmaz müəllimənin sözü yadımdadı. Demişdi ki, "Anası vəfat etmiş uşaqları o saat bilirəm, anasız uşaqları o saat tanıyıram, rəngindən, ruhundan, paltarının nimdaşlığından, köynəyinin ütüsüzlüyündən, yaxalığının əyrisindən tanıyıram". Düz deyirdi, anasızlıq o saat bilinir.

"Anası olana yetim demirlər". Çünki, analar ata ola biirlər. Analar hamı ola bilirlər. Anası olanın atasızlığı hiss olunmur.

**İnsan anadan yetim olur, ona görə ki, analar ata ola bilirlər, atalar ana ola bilməzlər, biləmməzlər (hələ hərdən ata da ola bilmir atalar). Anaların atalığı da var.**

# KƏND YERİNİN YAĞIŞ OVQATI

**Bu yağış da yağmağa vaxt tapdı. Rəhm yiyəsi gərək elə bu günmü yağdıraydı? Elə bil üstümə yağış yox, od-alov yağır, nə bilim daş-dəmir tökülür. Sonra da fikirləşirəm ki, bu rəhmi çox olmuş bu gün mənim işim var yağdırmasın, sabah sənin işin olacaq yağdırmasın, birisi gün də birinin işi çıxacaq, onda nə iş yapsın, axı? Birincisi, öz yerinə-yurduna yağdırır, kimin nəyinə lazımdır ki, onun işinə-gücünə qarışsın. İkincisi, qış yağış olmasın işimiz var, yaz yağış-yağmur nəyə lazımdır əkinimiz-səpinimiz var, yayda olmaz bir ayrı işimiz çıxıb, payızda da heç yağmasın mər-məhsul çöldə qalıb, evə gətirmək gərəkdir. Bəs, nə vaxt yağsın bu yağış?**



İndi mənim işim var deyə qış göydə ha, qışlayası deyil. Onsuz da mənim işlərim yağışsız ötüşmür. Düşünürəm ki, elə palçıq ayaqlamaq mənim qismətimə yazılmış bir zaddır və mən də neçə ildir onu ayaqlayıram. Mən şəhərli də deyiləm ki, ayaqqabım çamur görməmiş olsun. O üzdən də mənim yağışdan, palçıqdan-çamurdan da şikayət etməyə bir elə haqqım yoxdur. Nədən ki, hamı şəhərdə yaşasaydı, onda dünyanın axırı nə olardı. Sən ağa, mən ağa, a sağ olmuş, bəs inəklərimizi kim sağa. Birinin payına şəhər, birinin də payına kənd düşər. Allah üçün desəm heç şəhərli biçarənin yaşayışında da küsəniləsi bir şey qalmayıb gərək ki? Birinin yazısı günəşlə yazılar, birinin də bələyinə gün düşməz. Hamının bələyinə gün doğsaydı, onda qurd quzuyla otlayardı ki? Və ya yeni doğulan körpənin bələyini günə sərərdilər ki, böyüyəndə ağgünlü olsun. Deyəsən, bu yağış məsələsi mənim başımı qatdığından hətərən-pətərən danışdım, gah nala vurdum, gah da mıxa.

Yağışın yağmasına mənim bir iradım-filanım da yoxdur. Əslində yola-izə çıxmaq azarı olmasaydı, yağışın yağmasını heç eynimə də almazdım. Özümü verərdim isti ocağın qırağına. Allah verəndən yeyib-içər, gül kimi televizormu seyr edərdim. Mütəkkəyə dirsəklənmiş bir klassik kişi obrazına çevrilməkdən yana lap sinov gedirəm. Bu da hər deyən adama müyəssər olmayan arzudan savayı bir şey deyil. Ürəyindən mütəkkəyə dirsəklənib "çorta" getmək keçsə də, qış günü bunun mümkünsüz olmasını da gərək biləsən. Kənd yerində otaqlardan birində-ikisində ocaq yandırıldığından dirsəklənmək məsələsini saxlayırsan yaza-yaya. Mütəkkə qaçmır, sən qaçmırsan. Yaz gələr hərə bir tərəfə dağılar, evin cəmi otaqları keçər ixtiyarına, sən də güləbətinli mütəkkənə dirsəklənib, kefini çəkərsən. Kef deyəndə bir ayrı şey anlamayın. Yəni yazda bir az "ayran iç, qulağı dinc" olursan. Ən ümdəsi oğul-uşaq gedir oynamağına, sən də Allahın müftə-müssəlləm istisinə, Günəşin istisini deyirəm, qızınırsan. Nə odun dərdi çəkirsən, nə də ocaq.

Hə, onu deyirdim mən yağışın yağmasına qarşı çıxmaq niyyətindən çox uzaq adamam. Yağışdır yağır, qoy yağsın. Üç gün yağacaq, uzağı beş gün yağıb sərpiləcək. Di gəl ki, bu yağış deyilənin bir "əmma"sı olmasaydı, kim idi ona fikir verən. İndi deyək ki, kəndin adamı səhər yerindən qalxıb gözünü ovxalayanda görür bir yağış yağır, gəl görəsən, ucundan tut göyə çıx. Biçarənin ilk ağlına gələn o olur ki, ay Allah, colma-cocuq məktəbə necə gedəcək? Neynəsin, bala bağır ətidir. Bir miniyi də yoxdur, oğul-uşağın məktəbə gedənini məktəbə, bağçaya gedənini bağçaya apara. Uşaq da başından yağış döyə-döyə, palçıq ayaqlaya-ayaqlaya, daha nə deyim belə göl-gölməçə şığana-şığana ayağı başından yekə məktəbə getməli olmalıdır. Elə uşaqların bu get-gəli olmasaydı, yağa-yağa da dursun, lap dara qalanda cəhənnəmə yağsın, qara yol da bəri yanında qalsın.

Deyək ki, uşaq elə birtəhər, Allah kəssinlə gedib məktəbə çıxdı da, pis-yaxşı dərsində oturub atasının xarabasına qayıtdı da. Mənim nə həddimdir ki, kiminsə evinə-eşiyinə xaraba deyəm, kəndli qaragün belə fikirləşir. Onun başqa cür düşünməyə alternativ yolu da yoxdur, axı? Nədən ki, məktəbdən dönən balalarının yağışdan cücüyü çıxıb, vay o gündən ki, birinin ayaqqabısının altı da balıq ağzı kimi ayrıq qala. Onda ölünü qoy, dirini ağla olmayacaqmı? Olacaq, hələ desən anrı da keçəcək. Bax, bu yerdə deyiblər yağışdan çıxdıq, yağmura düşdük. İndi qış öynü gəl sən bu ətcəbalanı ayağı yalın qoy, görüm necə qoyursan. Sonra da ayaqqabı tikən çinlinin yeddi arxadan dönəninin söyüş payını verib, uşağın qınanmalı olmadığı qənaətinə gəlirsən. Sabah borc-xərc bir cüt ayaqqabını yerin deşiyində də olsa, tapıb almalı olduğunu qətiləşdirirsən. Uzağı uşağın köhnəsini pinəçiyə aparacağını düşünüb, bir az rahatlıq tapırsan.

**.... Yaman günün ömrü az olar, yaza nə qaldı ki, dekabrı keçdinmi, yanvarı, fevralı da bir yolla başa vuracaqsan, martı yola salmağa da nə var ki? Sağlıq olsun yaz gələr, hər şey də yoluna düzələr. Bu yağışın-qarın da pisliyi özünə qalar. Siz Allah, elə deyilmi?!.**

A. MUXTAROĞLU

# BİDZİNA İVANİŞVİLİ KUTAİSİ UNİVERSİTET KOMPLEKSİNİN TİKİNTİSİ ÜÇÜN 1 MİLYARD AVRO AYIRIB



Gürcüstanın keçmiş baş naziri, milyarder Bidzina İvanişvili "Kutaisi universitet kompleksi"nin tikintisi üçün bir milyard avro köçürüb. Bu barədə İvanişvilinin Feysbuk sosial şəbəkəsindəki rəsmi səhifəsində məlumat verilib.

"Kutaisi universitet kompleksi"nin tikintisi parlament şəhərində, İmereti regionunda gedir. Kompleks 140 hektar ərazidə inşa olunur və regionda müasir laboratoriya və infrastrukturla təchiz olunmuş ilk miqyaslı təhsil mərkəzidir. Bu təhsil mərkəzi 60 min tələbə üçün nəzərdə tutulub.

Universitet şəhərciyi özündə təhsil və elm sahələrini, auditoriyaları, ultramüasir laboratoriyaları, konfrans zallarını, kitabxanaları, tələbələr və müəllimlər üçün yataqxanaları birləşdirəcək. Kompleksdə həmçinin kinoteatrlar, istirahət üçün klublar, kafelər, futbol və reqbi, habelə mini-futbol üçün stadionlar, tennis kortları, basketbol meydançası, hovuzlar inşa olunacaq.

# GÜRCÜSTANIN ƏN UZUN DƏMİR YOLU TUNELİNİN TİKİNTİSİ BAŞA ÇATDI

Kvişxeti-Zvare sahəsində tikilən və uzunluğu 8,5 kilometrə yaxın olan tunel qatarların paytaxtdan Qara dəniz sahilinə hərəkət müddətini bir saatadək qısaltmağa imkan verəcək.

Tunelin açılış mərasimində çıxış edən Gürcüstanın baş naziri Georgi Kvirikaşvili deyib: "Bu böyük layihənin həyata keçirilməsi nəticəsində dəmir yolu xətlərinin buraxıcılıq qabiliyyəti artacaq, dağ keçidlərində hərəkətin təhlükəsizliyi yüksələcək, qatarların Tbilisidən Batumiyədək hərəkət müddəti qısalacaq".

Onun sözlərinə görə, "Gürcüstan dəmir yolları" SC magistralların modernləşdirilməsinin vaxtında və standartlara əməl olunmaqla başa çatması üçün böyük səy göstərir.

Kvirikaşvili deyib: "Bizim hesablamalarımıza görə, layihə 2020-ci ildə başa çatacaq. Bu istiqamətdə bizim modernləşdirilmiş, müasir standartlara cavab verən dəmir yolu infrastrukturumuz olacaq".

Baş nazir qeyd edib: "Avropadan Mərkəzi Asiyaya yolun keçdiyi Gürcüstan regionda ticarət və yükdaşımaları sahəsində regionun ciddi oyunçusu olmaq üçün hər cür imkana malikdir".

Gürcüstan dəmir yollarının modernləşdirilməsi layihəsi tunel tikintisindən başqa, uzunluğu 450 kilometrə çatan Tbilisi-Batumi magestralının ayrı-ayrı sahələrinin yenidən qurulmasını nəzərdə tutur.

Layihənin texniki-iqtisadi əsaslandırılmasını Fransanın Milli dəmir yolları kompaniyasının Systra törəmə şirkəti, layihə-tikinti işlərini isə beynəlxalq tenderdə qalib gəlmiş Çinin China Railway 23rd Bureau Group şirkəti həyata keçirir. Layihənin ümumi dəyəri 303 milyon İsveçrə frankı təşkil edir.

Gürcüstan dəmir yolları "Şərq-Qərb" nəqliyyat dəhlizinin tərkib hissəsidir. Gürcüstanın istismar olunan dəmir yollarının uzunluğu 1 324 kilometrdir.

# NATİONAL GEOGRAPHİC TBİLİSİNİ SƏYAHƏT ÜÇÜN ÜÇ ƏN YAXŞI YERDƏN BİRİ SEÇİB



Tbilisi National Geographic nəşrinin versiyasına görə 2018-ci ildə səyahət üçün ən yaxşı üç yerdən biridir.

Təbiət və səyahətlər haqqında ən populyar jurnalın redaktorları müntəzəm olaraq hər ilin sonunda oxucularına yeni ildə səyahət istiqamətləri tövsiyə edən reytinq tərtib edirlər. Bu dəfə siyahıya 21 istiqamət salınıb.

National Geographicin reytinq təsvirində deyilir: "Siz növbəti macəranızın axtarışındasınız? Bizim redaktorlarımızın seçimləri sizə bütün dünyada yeni marşrutlar açmağa, yerli təamları dadmağa və gözəl təbiətlə tanış olmağa yardım edəcək".

"2018-ci ildə ziyarət etmək üçün lazımlı yer" siyahısında Gürcüstan paytaxtı üçüncüdür.

2018-ci ilin ən yaxşı istiqamətləri reytinqinin birincisi Efiopiyanın şərqindəki Xarer şəhəridir. İkinciliyi isə Argentinanın şimal-qərbində yerləşən Jujuy əyaləti tutub. Siyahının ilk onluğuna Sidney (Avstraliya), Oaxaka (Meksika), Vyana (Avstriya), Havay arxipelaqının Oaxu adası, Malme (İsveç), İordaniya və Dublin (İrlandiya) də daxil edilib.

# QARDABANİDƏ 300 MEQAVAT GÜCÜNDƏ İSTİLİK ELEKTRİK STANSİYASI İNŞA EDİLƏCƏK



"Tbilisi İpək Yolu Forumu" çərçivəsində Gürcüstan sənaye qrupunun törəmə Cppower şirkəti və Çinin ən böyük koorporasiyalarından biri olan Dongfang Electric Corporation arasında Qardabanidə 300 meqavat gücündə kömürlə işləyən istilik elektrik stansiyası layihəsinin hazırlanması və tikintisi ilə bağlı müqavilə imzalanıb.

Sənaye qrupunun məlumatına görə, müqavilənin ümumi həcmi 200 milyon dollar, planlaşdırılan ümumi investisiya dəyəri isə 250 milyon dollar təşkil edir. Tikinti öncəsi hazırlıq işləri görülüb.

Əsas inşaat işlərinin 2018-ci ildə başlanması planlaşdırılır. Stansiyanın istifadəyə verilmə vaxtı isə 2020-ci ilin son kvartalında nəzərdə tutulur.

# İSLAM QADIN VƏ KİŞİ BƏRABƏRLİYİ HAQQINDA

***Zaman keçdikcə dövr dəyişdi. İnsanlar inkişafın və dəyişimin yollarını tapdı. Bu vəziyyət normal olaraq yeniliklərin meydana gəlmələrini də özü ilə gətirdi. İnsanlar fikirlərini daha açıq ifadə etmənin yollarını, daha geniş bir yelpikdə axtardılar. Fərdlər mədəniyyətdən daha çox faydalanmaq, uşaqlarını zamana görə yetişdirmək məqsədiylə, keçmişə nisbətlə daha çox səy içərisində oldular. Cəmiyyətlər özlərini daha yüksəklərə çatdırmanın səyi içinə girdilər, başqa cəmiyyətlərlə daha yaxşı dialoqun, köməkləşmənin yollarını axtarmağa başladılar.***

Bu axtarışlar cəmiyyətlərin quruluşuna görə bəzən müsbət bir şəkildə nəticələndi, özünə yer tapdı, bəzən də müxtəlif mənfiliklərlə birlikdə davam etdi. Bununla birlikdə insani və əxlaqi dəyərlərin gözardı edilməsi cəmiyyətdə özünü yaxşıca hiss etdirdi. İsti ailə yuvaları gedərək soyumağa başladı, ailə içi əlaqələr vərdiş etmədiyimiz bir ölçü qazandı, boşanmalar hər keçən gün artdı, uşaqlarla ailə böyükləri arasında dialoq qopuqluğu get-gedə böyüdü. Sevgi, hörmət, şəfqət unudulmağa üz tutdu. Sevginin yerini mənfəətə dayanan əlaqələr aldı. Təməlində səmimiyyət, sevgi olmayan hər yenilik bir yamaq kimi özünü göstərdi.

Bununla birlikdə həyatın qarışıqlığı içində yeni ünsiyyət sahələrinin kiçiltdiyi dünyamızda dini düşüncənin, sevginin, əxlaqın, barışın cəmiyyətə çatdırılmasında yeni imkanlar, yeni kanallar ortaya çıxdı. İslamiyyətin birləşdirici, inteqrasiya olundurucu, barış və xoşbəxtlik nəzərdə tutan mesajının daha güclü, daha təsirli köçürülməsinin gərəyi özünü yaxşıca hiss etdirdi.

İslam barış deməkdir, qardaşlıq, dostluq, köməkləşmə, paylaşma deməkdir. İslama görə insanlar bərabərhüquqludur, haqq və azadlıqlar baxımından aralarında bir fərq yoxdur.

Ancaq insanlıq tarixinin hər dövründə davam edən ayrı-seçkilik varlığını indiki vaxtda da müxtəlif şəkildə davam etdirməkdədir. Bu insanlıq ayıbından xilas olmaq əlimizdədir. İnsanların düşüncəsində var olan, qarşısındakını aşağı görmə anlayışının silinməsi lazımdır. "İnsan olaraq" fərd digərindən daha dəyərsiz deyil. Allahın sənəti hər insan üçün eynidir. Heç bir fərd ata-anasını, rəngini, cinsiyyətini, irqini, vətənini və millətini təyin etmə gücünə sahib deyil. Kiçik hesab etdiyimiz insanın yerində biz də ola bilərdik. O halda insanlar arasında ayrı-seçkilik ən böyük cəhalətdir. "Müsəlmanlar ancaq qardaşdır. Elə isə qardaşlarınızın arasını düzəldin" (Hucurat, 10) ayəsiylə bu gerçək bizə bir dəfə daha xatırladılmışdır. Bu rəsmi gözəl görə bilmək üçün, dünyanın müxtəlif bölgələrindən gəlib tək bədən kimi hərəkət edərək Beytullahın ətrafında təvaf edən müsəlmanları bir az xəyal etməmiz kifayət edəcək. Bax, o zaman üzümüz qızaracaq, fərqli düşüncələrimiz, düşmənliklərimiz, haqsız tənqidlərimiz və minlərlə səhvlərimizi bir anda zibilə atmamız mümkündür. Buna müqabil birliyimiz, qardaşlığımız və xoşgörüşümüz də o nisbətdə güclənəcək.

Hz. Peyğəmbər (s.ə.s) peyğəmbərliklə vəzifələndirildiyində, duyğu və düşüncələri çirkləndirilmiş, sağlam düşünə



bilməyən bir cəmiyyətlə qarşılaşmışdı. Kişilər öygü, qadınlar isə utanc vəsiləsi sayılırdı. O dövr insanının duyğuları "Onlardan birinə qız müjdələnildiyi zaman hirslənmiş olaraq üzü qapqara kəsilər, özünə verilən müjdənin pisliyindən ötəri qövmündən gizlənər. Onu, alçaq duyğusu içində yanındamı tutsun, yoxsa torpağamı basdırsın! Baxın ki, verdikləri hökm nə qədər pisdir!" (Nəhl, 58-59) ayələrində bildirilməkdədir. Bu utancdan xilas olmaq üçün heç bir günahı olmayan qız uşaqları diri-diri öz ataları tərəfindən torpağa basdırılırdı. Bu duyğu və düşüncələrə sahib insanları bir anda öyrətmək asan olmayacaqdı. Əvvəlcə bu düşüncələrin səhv olduğunu, sonra da insan olaraq qadın və kişinin bərabər olduğuna inandırılmaları lazım idi. "Ey insanlar! Doğrusu biz sizi bir kişi və qadından yaratdıq. Bir-birinizlə tanış olasınız deyə qövm və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah qatında ən qiymətli olanınız, Ondan gərəyi kimi çəkinəndir." (Hucurat, 13) və bir çox ayədə dil, irq, rəng, cinsiyyət, gözəllik, görünüş və yaradılış olaraq insanlar arasında bir fərqliliyin olmadığını, insan olaraq hər kəsin bərabər olduğu bildirilmişdir. Peyğəmbərimiz də qadınları kiçik hesab edən bu səhv anlayışları dilə gətirmiş və düzəltmişdir. Onun yanına gəlib, "Ey Allahın elçisi, yaxşılıq etmədə kimə üstünlük verim şəklində soruşan adama, – anana. – Sonra kimə yaxşılıq edim. – Anana. – Sonra kimə yaxşılıq edim. – Anana. – Daha sonra kimə yaxşılıq edim sualına isə dördüncüdə – atana yaxşılıq et" (Buxari, Ədəb, 5514; Müslim, Ədəb, 4621) şəklində cavab verməsi və "Cənnət anaların ayağı altındadır" (Camiu's Kar, 3642) hədisi ana-ata arasında ayrı-seçkilik etdiyindən deyil, bəlkə o cəmiyyətdəki qadınlara qarşı duyulan utancın qaldırılmasına istiqamətli səyindən qaynaqlandığı üçündür. "Rəbbin … ana-atanıza yaxşı davranmanızı qəti bir şəkildə əmr etdi. Onlardan biri və ya hər ikisi sənin yanında yaşlansa, özlərinə "of!" belə demə; onları danlama; ikisinə də gözəl söz söylə. Onları əsirgəyərək təvazökarlıqla üzərlərinə qanad gər və: "Rəbbim! Kiçikliyimdə onlar məni necə yetişdirmişlərsə, indi də sən onlara (elə) rəhmət et!" (İsra, 23-24) kimi sözlərlə aralarında ayrı-seçkilik etmədən dua edilməsini, yaşlılıqlarında evimizin bir hissəsində onlara da bir otaq təsis edərək bağrımıza basmamızı, varlıqlarını külfət deyil, özümüzə bir nemət bilməmizi, "of" sözü kimi ən kiçik hörmətsizlik ifadə edən söz, rəftar və hərəkətlərdən uzaq dayanmamızı müxtəlif vəsilələrlə nəsihət etməkdədir. Bir başqa ayədə isə, "Ey möminlər! Bir birlik digər bir birliyə lağ etməsin. Bəlkə də onlar, özlərindən daha yaxşıdırlar. Qadınlar da qadınlara lağ etməsinlər. Bəlkə onlar özlərindən daha yaxşıdırlar. Öz özünüzü ayıblamayın, bir-birinizi pis ləqəblərlə çağırmayın" (Hucurat, 11) buyurularaq bəşəri əlaqələrdə nəzakət qaydalarına diqqət çəkilmişdir.

***İnsanları şəkil və cinsiyyətlərinə baxaraq alçaltmanın haqsızlığını dilə gətirərək, ərdəmli insanlara şəkilçi düşüncə və yanaşmaların yaraşmadığını bildirir. "Mömin kişilərlə mömin qadınlar da bir-birlərinin köməkçiləridirlər. Onlar yaxşılığı əmr edər, pislikdən çəkindirər, namazı dümdüz qılar, zəkatı verər, Allah və Rəsuluna hörmətlidirlər. Allah mömin kişilərə və mömin qadınlara, içində əbədi qalmaq üzrə altından çaylar axan cənnətlər və Adn cənnətlərində gözəl evlər hazırladı." (Tövbə, 71-72) və başqa bir çox ayədə, qadın kişi arasında bir ayrı-seçkiliyin edilmədiyini açıq bir şəkildə görməkdəyik. Cinsiyyət fərqliliyinin insanların törəyib çoxalmaları, xoşbəxt bir yuva qurmaları, "Onlar sizin üçün bir paltar, siz də onlar üçün bir paltarsınız…" (Bəqərə, 187) ayəsində də ifadə edildiyi kimi haramdan qorunmada bir-birlərini qoruyan bir sığınacaq olaraq görmək lazımdır.***

Hacı BƏKİROĞLU

## GÜRCÜSTAN ƏHALİSİNİN 6,1 FAİZİ BORCUNU ÖDƏYƏ BİLMİR



Reyestr qeydlərində borcluların sayı daim artır. Son 10 ay ərzində onların sayı 23,5% artıb.

Əgər 2017-ci il yanvarın 20-ə olan vəziyyətə görə reyestrdə 186 285 nəfər borclu olubsa, 10 ay ərzində onların sayı 43 928 nəfər artaraq 230 223 nəfərə çatıb.

Bu rəqəmlər göstərir ki, Gürcüstan əhalisinin 6,1%-i borcunu ödəyə bilməyənlərdən ibarətdir.

Ümumilikdə, reyestrdə məlumatlar daimi olaraq dəyişir, çünki borcunu ödəyənlər siyahıdan çıxarılırlar. Lakin buna baxmayaraq, son illər artım tendensiyası şübhəsizdir, bu da həyatın bahalaşması və əhalinin borcunu ödəmə qabiliyyətinin aşağı düşməsi deməkdir.

Bu da öz növbəsində ölkədə sosial mənzərənin pisləşməsi əlamətləridir. Vəziyyətin yaxşılaşması üçün ən azı iqtisadi fəallığın artması gərəkdir, adamların pulu olmalıdır ki, borclarını bağlaya bilsinlər, mülkiyyətlərini itirməsinlər.

Borclular reyestrində yol hərəkatı qaydalarının pozulması və nəqliyyat vasitələrinin düzgün park edilməməsinə görə cərimələr də daxil olmaqla bütün növ borclar barədə məlumatlar var.

## 2021-Cİ İLƏDƏK AZARTLI OYUNLAR QADAĞAN EDİLƏCƏK

Gürcüstan vətəndaşlarına 2021-ci ilədək azartlı oyunlar oynamaq qadağan ediləcək. Maliyyə Nazirliyinin hazırladığı müvafiq dəyişiklik qanunvericilikdə nəzərdə tutulacaq.

Əgər parlament bu tənzimləməni qəbul edərsə on minlərlə Gürcüstan vətəndaşı kazinolarda, onlayn kazinolarda və totalizatorlarda oynamaq hüququndan məhrum ediləcək. Müvafiq olaraq azartlı oyunlar sahəsinin istifadəçilərinin sayında məcburi azalma baş verəcək.

Maliyyə Nazirliyinin hazırladığı izahedici qeydlərdə dəyişikliyin cəmiyyətə müsbət təsir edəcəyi, gənclərin artıq azartlı oyunlara qoşula bilməyəcəkləri bildirilir. Eyni zamanda bu qanun layihəsi oyunçuların vahid bazasının yaradılmasını nəzərdə tutur, bu da yetkinlik yaşı-



na çatmamışların oyunlara qoşulmasını istisna edir.

2016-cı ildə Gürcüstanda kazino və totalizatorların dövriyyəsi 4,3 milyard lari təşkil etmişdi. Bu, 2015-ci illə müqayisədə 16% çoxdur. 4,3 milyard larinin 850 milyonu totalizatorların payına düşür ki, bu da kazinoların dövriyyəsinin totalizatorlara nisbətən daha böyük olmasına dəlalət edir.

*Hüseyin Cavid -135*

# CÜMLƏMİZİN CAVİD QAPISI

*(vitraj)*

***Dövrünün məşhur tarixçisi, fəqihi və səyyahı, "Tarixi-Təbəri" əsərinin müəllifi Təbəriyə (IX-X əsrlər) görə, Tiflisin altı qarısı olub: Meydan qapısı, Rabat qapısı, Kars qapısı və sairə... Qapıların bəzisinin adı "qala", "istehkam" mənasını verir. Belə tərcümanlığa qalsa, Narınqalanın ilk adı da "Qısqanclıq qapısı" anlamında işlənib...***



...Qış qapını döyhadöydür. Bu qışağzı, bu qarqabağı Tiflis yolundayam və bir azdan şəhərin cənub qapısından giriş edəcəyik. Mənə hər dəfə belə gəlib ki, Tiflisdə Tiflislə bağlı olan, reyhanəli romantizmi ilə Sınıq körpüdən bəriləri də rövnəqləndirən qələm sahiblərimizdən birinin – Hüseyn Cavidin adını daşıyan bir adi gözlə görünməyən, amma bəsirət və həsrət gözü ilə görünən qapı var. Və Mirzə Qələm də, mən də qədim-qayım Tiflisə hər dəfə bu qapıdan giririk.

Hava soyuqdur. Çox zaman adamın şeir yazmaq xəstəliyi belə havalarda baş qaldırır. Qələm dostum Salam Sarvan nədənsə belə havaları nəzərdə tutaraq xəbərdarlıq edir ki, belə soyuq havada sevmək cana ziyandır... Salamın bir bəndini arazbarı pıçıldaya-pıçıldaya sirli-əsrarlı Cavid qapısından şəhərə necə girdiyimizin fərqində də olmuram:

Tanrı bir-biriyçün yaranmışların hamısını
bir-birindən uzaqda yaradıb əslində.
...əlimiz çatan qadın yarımız deyil,
ayağımız çatan torpaq yerimiz deyil...

Təbii ki, vaqifanə mənada, Tiflisin Qalaktion qapısı da var, Terenti Qraneli qapısı da var, Yetim Gürcü qapısı da... Bu yerdə çox istəyirəm ki, qapılar – eynən əskidə olduğutək – "istehkam", "qala" anlamını da verməsin; ehtiyac adamları qapı-qapı gəzdirməsin, ədalət divan qapısında axtarılmasın, bir kimsə qapı dalında qalmasın, ocağı sönüb qapısı bağlanmasın...

Cavid Əfəndi 1911 – 1917-ci illərdə Tiflisdə yaşayıb. "Ana" və "Keçmiş günlər" adlı ilk kitabları Tiflisdəki "Şərq" mətbəəsində çap edilib. Meydanda, Kür sahilində yerləşən "İttifaq" məktəbində müəllimlik edib: Yusif bəy Xanbudaqov və İbrahimxəlil Hacılarovla həmkar olub. "Hər qaranlıqda bir nur çırpınar", "Eşqlə sənə hər kainat olar təslim" deyə yazan şair Birinci Dünya müharibəsinin qarşısına da təbərlə, toppuzla, tüfənglə deyil, leylək qələmlə, "Şeyx Sənan"la çıxıb.

Məgər hər Tiflis, Təbriz, ya da Paris suyu içən şair Yaradana xatir bu cür yaza bilərdimi:

Kəssə hər kəs tökülən qan izini.
Qurtaran dahi odur Yer üzünü!..

Bunu səhhət və ehtiyac üzündən Kaxetə gedib oralarda tabelçi işləyən Cavid Əfəndi yazdı. Misilləmə misal üçün, Mirzə Qələm deyir ki, əgər onunla eyni dövrdə yaşasaydım, gedib əvəzində tabelçilik eləyərdim ki, Cavid Əfəndi də oturub Tiflisin "Cavid qapısı"na yeni rənglər qataydı, tabelçiliyə görə "düşərgə"mi də "Naxçıvandan göndəriblər" adıyla ailəsinə verərdim.

...Vaqif Bayatlı "Ulduz"da işləyirdi. Yox, mən Cavid Əfəndinin "nə yıldızlı yaıan"ını demirəm, Vaqif bəyin "Uldiz"unu deyirəm. Şeirlərini hər yetənə oxumağı sevməyən Vaqif bəy birdən-birə "Göyüzündən enən çiçəy"ini oxudu:

Cavid Əfəndi! Kim var insan adında
hamımız günahkarıq göyüzünün altında...

...Mirzə Qələm demiş, necə günahkar olmayaq ki, Hüseyn Cavidin 135 illiyi Naxçıvanda, Bakıda, Gəncədə, İstanbulda keçirilir, amma yaradıcılığının işıqlı illəri dolu Tiflisdə hələlik sükut hakimdir. O da Azərbaycan səfirliyinin, SOCAR-ın gözləri qabağındaca!..

Mirzə Qələmə təsəlli verirəm ki, niyə bu qədər qəm yeyirsəm, məsələ yubileydə deyil ki, məsələ "Cavid qapısı"ndadır! Onsuz da biz hər ilin 24 oktyabrını – Cavid Əfəndinin doğum gününü Əyriqarın ətəklərində bayramlaşmırıqmı? Hətta Naxçıvan Əyriqarına – yazıçı qardaşım Ələbbasın əyriqarlı "Qiyamçı"sına da savab və səxavət salamlar göndərmirikmi?..

..."Ulduz"lu vaxtında Vaqif Bayatlıya əlyazması redaktorun otağına çatmamış itən bir şeir göndərmişdim. Deyilirdi ki, Allahım, Sənə mənim də üççə bəndlik sözüm var, amma türkcə danışdığın günü bilmirəm, yoxsa buralarda bir Şeyx Sənan qırığı olaraq, şeirimi də gürcücəmi deməliyəm? Kaş bizi bir millət edəydin! Buyursana biləm: eşqdə bir "donuz çobanı" olmaqmı daha çox günah sayılır, yoxsa axıracan yabanı qalmaqmı?..

...Qədimlərdə şəhərlərin qala qapılarını düzəldən ustanın adı qapının bir yerinə yazılırdı. Məsələn, dəmirçi İbrahim ibn Osman Gəncənin qala qapılarını hazırlamışdı.

Əslində şair qapıları düzəldilmir, yaradılır: yəni indiki dildə, burada canlı kreativlikdən söz gedir! "Cavid qapısı"nı mən uydurub eləmirəm, unudulmaz şairimizin özü haqq eləyib! Qoy onun adına bir hücrə, bir döngə olmasın, fərq etməz; bu misilli Cavid qapısı ki var! Zənnimcə, sonralar Sibirin İrkutsk tərəfində –Tayşetdə sürgündə olarkən Tiflisdə adını daşıyan "Cavid qapısı" da tez-tez yuxusuna girməliydi Şairin! Axı o, Şeyx Sənanı əmanətdar Tiflisə nahaq yerə əmanət eləməmişdi:

Lakin ən son yerin, zəki Sənan! –
Olacaq son nəfəsdə Gürcüstan...
Vahid Vəhdət dünyasında nələr olmur?

P.S.

Axşam marşrutu ilə qayıdıram. Tiflisin həmişə açıq olan Cavid qapısından çıxantək onun iki misrasını "Sevda"lı (Cavid Əfəndinin eyniadlı əsərinə işarədir) Tbilisi – Bolnisi yollarına pıçıldayıram:

Məni öldürsələr də mən yaşarım,
Tərk edib xəlqi... Xaliqə qoşarım!

Qoy bizə Sınıq körpünün bəri üzündə arada-sırada sözün baş hərfinin hansı hallarda böyük yazıldığını "öyrədən" – eynən mənfur repressiya illərində öyrədiləntək – "Dədə" Mirzə Toxmaqvuran da bilsin və agah olsun: həm qrammatik (cümlə), həm də lüğəvi (cümləmiz – hamımız) mənada, Mirzə Qələmin də, mənim də cümləmizin baş qapısı Cavid qapısıdır!

***...Unudulmaz Arif Mustafazadə də Cavid Əfəndinin vurğunu idi.***

İBRAHİMXƏLİL

# SEÇİM FƏNLƏRİ ÜZRƏ VAHİD MİLLİ İMTAHANLARIN RUS DİLİNDƏ VERİLMƏSİ QADAĞAN EDİLDİ

Gürcüstan Milli İmtahanlar və Qiymətləndirmə Mərkəzinin rəsmi saytı 2018-ci ildə abituriyentlərin Vahid Milli İmtahanlarda (VMİ) seçim fənni üzrə imtahanları rus dilində verə bilməyəcəkləri barədə məlumat yayıb.

Abituriyentlər VMİ-də dörd imtahan verməlidirlər. Onlardan üçü – gürcü dili və ədəbiyyatı, ümumi qabiliyyət və xarici dil məcburidir. Məcburi imtahanlardan əlavə abituriyentlər seçim üzrə bir imtahan da verməlidirlər. Onlar ədəbiyyat, riyaziyyat, tarix, coğrafiya, kimiya, fizika, biologiya, təsviri və tətbiqi incəsənət, vətəndaş təhsili fənlərindən birini seçə bilərlər.

Artıq bütün bu fənlər üzrə abituriyentlərin sınaqdan keçirilməsi ümumi qabiliyyət imtahanı istisna olmaqla yalnız gürcü dilində aparılacaq.

Məlumatda vurğulanır: "Yenilik ümumi qabiliyyət üzrə imtahana aid edilmir. Bu fənn üzrə imtahan gürcü, Azərbaycan, erməni, abxaz və osetin dillərində keçiriləcək".

Yeni qaydalar həmçinin Gürcüstan mərkəzi hakimiyyətinin nəzarətində olmayan Abxaziya və Sxinvali regionlarında orta təhsil almış abituriyentlərə də şamil edilməyəcək. Belə ki, onlar seçim fənni üzrə imtahanları rus dilində verə biləcəklər.

# ŞAGİRDLƏRƏ PEŞƏ SEÇİMİNDƏ YARDIM EDİLƏCƏK



Gürcüstanın Təhsil və Elm Nazirliyi yeni pilot layihənin gerçəkləşdirilməsinə başlayıb. Layihə çərçivəsində dövlət məktəblərinin 7-ci, 8-ci və 9-cu sinif şagirdləri özlərini müxtəlif peşələrdə sınaya biləcəklər.

Nazirliyin qərarına əsasən Gürcüstan məktəblərində əmək dərsləri tədris olunacaq. Bu fənn məcburi olmayacaq.

Təhsil Nazirliyi müsabiqə əsasında yeniyetmələrin peşəkar inkişafına dair 200 layihə seçərək, artıq dövlət məktəblərində onların gerçəkləşdirilməsinə başlayıb. Beləliklə, şagirdlərə kulinariya, tikiş, dizayn və hətta kompyuter quraşdırmağı mənimsəmək təklif olunur.

Proqram ölkənin 138 dövlət məktəbində həyata keçirilir və 3,3 min şagird üçün nəzərdə tutulur. Layihənin gerçəkləşdirilməsinə büdcədən 2 milyon lari ayırılıb.

Əmək dərslərini əsasən texniki peşə məktəblərinin pedaqoqları tədris edəcəklər. Bununla belə yeni fənni hazırlıq keçmiş məktəb müəllimlərinin tədris etməsi də mümkün olacaq. Əmək dərslərinin keçilməsinə görə məktəb pedaqoqları əlavə on lari alacaqlar.

Proqramın məqsədi məktəblilər arasında peşə proqramları barədə məlumatlılığı genişləndirməkdən və peşə təhsilini populyarlaşdırmağa yardım etməkdən ibarətdir. Təhsil Nazirliyində yeni təşəbbüsün məktəb həyatını daha maraqlı və rəngarəng edəcəyini də güman edirlər.

# ÖLKƏMİZDƏ ƏN ÇOX TƏLƏB OLUNAN PEŞƏLƏR BƏLLİ OLDU

Gürcüstan Sahibkarlar Assosiasiyasının (GEA) prezidenti Elqca Meladze qida istehsalı texnoloq və aqronom peşələrinin Gürcüstanın əmək bazarında ən çox tələb olunan peşələr olduğunu bildirib.

Meladze Gürcüstanda iş yerlərinin olduğunu, lakin ixtisaslı kadr çatışmazlığının müşahidə edildiyini vurğulayıb. O, bəzi sahibkarların kadr problemini xaricdən mütəxəssislər cəlb etməklə həll etməyə çalışdıqlarını qeyd edib. Elqca Meladze mövcud problemin həll edilməsi üçün ali təhsil müəssisələrinin, eləcə də peşə kolleclərinin əmək bazarının tələblərini öyrənməli olduqlarını bildirib.

Meladze deyib: "Ölkə iqtisadiyyatının inkişafı üçün peşə təhsili həlledici faktordur. Bunun üçün boş iş yerlərinin yerli kadrlarla doldurulması gərəkdir".

O, hökumətin struktur islahatlarını və nazirliklərin sayının 18-dən 14-ə qədər azaldılmasını da şərh edib. Meladze dəyişiklikləri müsbət qiymətləndirib. O, struktur islahatları nəticəsində iş yerlərini itirən şəxslərə əmək bazarında tələbatın olacağını, bu ixtisaslı kadrların işlə təmin ediləcəyinə əminliyini ifadə edib.

Peşə məktəblərinin inkişafı və peşə təhsilinin populyarlaşdırılması təhsil nazirliyinin işlərinin ən mühüm ünsürlərindən biridir. Nazirlik peşə məktəblərinə hər cür yardım etmək, onları əmək bazarının tələblərinə uyğun hala gətirmək, təhsil alanların sayını artırmaq niyyətindədir.

# ÇİBİN

*(Hekayə)*

**KAMURAN**

***Zaman gecə evə gələndə yoldaşı Lalə xanım şüşəbənddə onu gözləyərkən yatıb qalmışdı. Zaman bir müddət dayanıb yoldaşına baxdı, kefli idi, ona baxarkən iyirmi illik münasibətləri gözünün önündən keçdi və dərindən köksünü ötürdü. Çətin də olsa Lalə xanımı qucağına aldı, qaranlığı yararaq, zehnindəki xəritəni izlədi və düz otaqlarına çıxdı, Lalə xanımı yerinə uzatdı, əynini dəyişdi və yatağa uzandı.***

Gözləri pəncərədə idi. Payız fəslinin qəribə soyuğu yavaş-yavaş təbiətə yayılmağa başlamışdı. Zaman göydə asılı qalmış ayın bir hissəsini və zərifcə işıldayan bir neçə ulduzu görürdü. O, bir daha köksünü ötürdü və bir yanı üstə uzanaraq gözlərini yumdu, lakin yuxu tutmurdu ki, tutmurdu. Zaman qırx beş yaşa böyük uğurlar sığdırmışdı, mətbuatda adı-sanı var idi, onun bircə cümləsi istər siyasi, istərsə də mədəni zəmində gündəmi dəyişirdi, hazırda isə qəzetlərdən birinin baş redaktoru idi və onlarla kitabın da müəllifi olmuşdu. Yoldaşı Lalə xanımla iyirmi illik bir münasibəti var idi və münasibətlərindən göyçək, Səma adında bir qızları olmuşdu, hazırda onun on doqquz yaşı var idi. Onun otuz illik möhkəm dostluq saxladığı, Qəmbər adında yaxın bir dostu da var idi, bir az əvvəl birlikdə idilər, araqdan vurub, dünyadan keçmişdilər. Zaman özünü xoşbəxt hiss edirdi, istəyə biləcəyi hər uğura nail olmuşdu. Hazırda isə nəsə bir boşluq hiss edirdi, sanki daha lazımsız idi, ona heç kimin ehtiyacı yox idi.

Zaman yata bilmədiyini görüb gözlərini açdı. Yataqdan durub qızının otağına getdi, qızı yatırdı. Yaxınlaşıb başından öpdü, burnunu saçlarının arasına salaraq dərindən nəfəs aldı və onu oyatmamaq üçün tezcə otaqdan çıxdı. Mətbəxə getdi, buzluqdan pivə çıxardı, açdı və bir neçə qurtum aldı. İçindəki boşluq düşündükcə böyüyürdü, odur ki, düşünməməyə çalışırdı və pivədən qurtumlayırdı.

- Ay Zaman, burda neynirsən? – mətbəxin qapısı tərəfdən səs eşidildi, bu Lalə xanım idi.
- Heç... yuxu tutmadı, - Zaman cavab verdi.
- Gəl gedək sənə masaj edim, o saat yuxun gələcək, - Lalə xanım dedi və yaxınlaşaraq arxadan qollarını Zamanın boynuna doladı.
- Get, gəlirəm, - Zaman dedi və Lalə xanımın əllərini boynundan açdı.
- Sənə nə olub axı? – Lalə xanım soruşdu, - sən son zamanlar çox dəyişibsən...
- Dəyişib eləməmişəm, get, gəlirəm.

Lalə xanım getdi. Zaman bir pivə də çıxardı, açdı, başına çəkdi. Heç özü də bilmirdi nəyi var, səbəbsiz yerə darıxırdı, boş şeylərə əsəbiləşirdi. Saata baxdı, dörd olurdu və onu hələ də yuxu tutmurdu, üstəgəl, sabah tezdən çox mühüm bir görüşü var idi, odur ki, mətbəxin işığını söndürdü və yatmağa getdi. Elə yerinə təzəcə girmişdi və gözlərini qapamışdı ki, çibin vızıltısı eşitdi, otaq boyu bir



çibin irəli-geri uçurdu, bəzən də gəlib düz onun burnuna, qulağına, alnına qonurdu, ayaqlarında gəzişirdi və bütün bunlara təbii ki, Zaman səssiz qalmırdı, tez-tez çibini qovurdu. Axır ayağa durdu, çəkələyini əlinə götürdü və hərəkətsiz dayanaraq çibini öldürməyin pusqusuna yatdı, diqqətlicə gözlədi. Vızıltı eşidən kimi çəkələklə çibinin içalatını eşiyə çıxardacaqdı, çox əsəbi idi. Az gözlədi, çox gözlədi, gördü çibin ortaya çıxmır, daha yerinə uzandı, Lalə xanımı qucaqladı və gözlərini yumdu.

O, nisbətən özünü yaxşı hiss edirdi. Düşünürdü ki, durduğu yerdə bəzən hava da pozula bilir, birdənbirə halının qarışması göydən asılı qalmış ay kimi təbii hadisədir. O, bir daha uğurlarını düşündü, bir az əvvəlki əsassız narazılığı yoxa çıxmışdı, simasına çökmüş təbəssümlə ailəsini, keçmiş və gələcək uğurlarını gözünün önünə gətirirdi. Qızını mütləq oxudacaqdı, təhsilli qadın həm də yaxşı yoldaş və yaxşı ana olur, Lalə xanım bunun ən bariz nümunəsi idi. Qızının sevdiyi bir oğlan var idi, başlarda xəbər tutan zaman özündən çıxsa da, oğlanın kim olduğunu araşdırandan sonra sakitliyini qorudu, içi rahat oldu, çünki oğlan yaxşı ailədən idi.

Yaşının çox olmasına baxmayaraq, onun hələ çox arzusu var idi. O, uşaqlıqdan dağda bir evinin olmasını istəyirdi, onun fikrincə, yayda dağ havasının yerini heç nə vermir. Beş-on ildən sonra nəvələriylə dağdakı evinə gedərək orada dincələcəkdi.

Zaman bəy çox planlı adam idi, o, on-on beş ilini əvvəlcədən fikirləşirdi və böyük ehtimalla gələcək həyatı elə ağlında qurduğu kimi olurdu.

Şirin xəyalların içindəykən yenidən çibin vızıltısı eşitməyə başladı, üzündəki təbəssüm yoxa çıxdı, lakin tərpənmədi, yavaş-yavaş özünü sakitləşdirdi və təbəssümü üzünə qayıtdı, xəyallarını qurmağa dayandığı yerdən davam elədi.

Onun yoldaşı və qızı ondan çox asılı idilər. Yoldaşı onu o qədər çox sevirdi ki, az qala içindən ona ata demək keçirdi, çünki Zaman bəyin yanında özünü çox cılız, zəif, tamamilə ona təslim olmuş hiss edirdi, odur ki, Zaman bəyin olmaması, onların bədbəxtliyə gedən express bileti sayıla bilərdi. Elə çoxu bu səbəbə görə Zaman bəy həmişə diqqətli, səbirli, təmkinli olmağa çalışırdı, ailəsinin ona necə də möhtac olduğunu bilirdi.

Çibin vızıltısı bir daha ortaya çıxdı. Zaman bəy dodağının altından pıçıldayaraq dedi:

- Əgər üzərimə qonsan, səni əvvəlcə əzəcəyəm, əzilmiş vücudunu min parçaya bölərəm və sonra da qarışqalar yeməsin və təbiətə qarışmayasan deyə səni yandıracağam!..

***Çibin sanki dil bilirmiş kimi yoxa çıxdı, vızıltısı daha eşidilmədi. Zaman bəy əlini balışın altına qoydu və üzüqoylu uzandı, bu səfər deyəsən onu yuxu tutmuşdu. Elə yenicə yuxuya gedirdi ki, çibin gəldi düz qulağının üzərinə qondu. Bunu görən Zaman bəy əsəbindən dik atıldı, çəkələyi əlinə aldı və zərbəni heç hara atdığını özü də bilmədən sürətlə əlini havada yellədi, birdən ayağı ilişdi, pəncərəyə tərəf yıxıldı, dəhşətli hadisə baş verdi, pəncərənin qırılması ilə onun çölə düşməyi bir oldu, üzüqoyulu yerə sərilmiş Zaman üzü-başı qan içində, son nəfəsini verirdi...***

## GÜRCÜSTANDA ÖLÜM SƏBƏBİNİN 93 FAİZİNİ QEYRİ-İNFEKSİON XƏSTƏLİKLƏR TƏŞKİL EDİR

Tütün və alkoqoldan sui-istifadə, habelə passiv həyat tərzi qeyri-infeksion xəstəliklərin törədiciləridir. Bu da ölkəmizdə 93% ölümə səbəb olur.

Bu barədə qeyri-infeksion xəstəliklərin risk faktorlarının araşdırılması nəticəsində qənaət hasil olunub. Tədqiqatın nəticələri Tbilisidə Gürcüstanın Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin qeyri-infeksion xəstəliklərin qarşısının alınması və onlara nəzarət olunması üzrə Koordinasiya Şurasının genişləndirilmiş iclasında təqdim olunub.

Araşdırmaya əsasən, 2010-cu ildən 2016-cı ilədək tütündən istifadə edənlərin sayı 55,5%-dən 59,2%-ədək artıb. Altı il ərzində alkoqoldan istifadə 78,5%-dən 89,7%-ədək yüksəlib.

Araşdırmada proflaktika məqsədilə pasiyentlərin həkimə müracət etmə faizinin də aşağı olduğu qeyd edilir. Daha böyük problem artıq çəki və duzun izafi istifadəsi ilə bağlıdır.

Xroniki xəstəliklər kimi də tanınan qeyri-infeksion xəstəliklər XXI yüzilliyin səhiyyəsi üçün mühüm çağrışlardan hesab olunur. Bir qayda olaraq bu xəstəliklər davamlı olur və genetik, fizioloji, ekoloji və davranış faktorlarının kombinasiyası nəticəsində meydana çıxır.

Qeyri-infeksion xəstəliklərin əsas növlərinə ürək-damar (infarkt və insult kimi), xərçəng, xroniki respirator xəstəlikləri və diabet aid edilir.

Gürcüstan Səhiyyə Nazirliyi 2015-ci ildə nəzarəti gücləndirmək və fəaliyyət planı qurmaq üçün qeyri-infeksion xəstəliklərin qarşısının alınması və onlara nəzarət olunması üzrə Koordinasiya Şurası yaradıb.

Tədqiqatın gedişində mütəxəssislər sosial-demoqrafik məlumatları, əhalinin vərdişlərinin risk faktorlarını (tütün, alkoqol, düzgün qidalananmama, passiv həyat tərzi), fiziki göstəriciləri (boy, çəki, bel və ombanın həcmi, təzyiq, nəbz), bioloji risk faktorlarını (qanda qlükoza və xolestrerinin səviyyəsi, sidikdə kreatinin və duzun miqdarı) araşdırmışlar.

## 18 PARTİYA İLDƏ BÜDCƏDƏN 9 MİLYON LARİ ALACAQ

18 partiya Gürcüstanın dövlət büdcəsindən ildə 9 milyon lari vəsait alacaq. Bu barədə Gürcüstan Mərkəzi Seçki Komissiyasının sədri Tamara Jvaniynın sərəncamında bildirilir.

Gürcüstan qanunvericiliyinə əsasən dövlət maliyyələşməsi parlment və yerli idarəetmə orqanlarına seçkilərin nəticələrinə görə 3%-dən az olmayaraq səs qazanan partiyalara nəzərdə tutulur.

Ən böyük, daha doğrusu 2 milyon laridən artıq vəsaiti hakim "Gürcü arzusu – Demokratik Gürcüstan" partiyası alacaq.

Onun ardınca "Gürcüstan vətənpərvərlər alyansı" gəlir və bu partiyanın illik maliyyələşməsi təxminən 1,3 milyon lari təşkil edəcək.

Alacağı maliyyə vəsaitinə görə "Avropa Gürcüstanı – Azadlıq uğrunda hərəkat" üçüncüdür. Bu partiya dövlət büdcəsindən 1 milyon laridən çox alacaq.

Keçmiş hakim "Vahid milli hərəkat" partiyasına dövlət büdcəsindən 991,7 min lari vəsait ayırılacaq.

Dövlət büdcəsindən ən az vəsait "Azad Gürcüstan", "Gürcüstan mühfizəkarlar ittifaqı", "Azadlıq – Zviad Qmsaxurdiy yolu", "Gürcüstan veteranlarının və vətənpərvərlərinin siyasi hərəkatı" partiylarına ayırılacaq. Onların hər biri ildə cəmi 87 min lari alacaq.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

30 noyabr 2017-ci il
№020 (58)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## 15 YAŞLI İXTİRAÇI REYHAN CAMALOVA DÜNYAYA NÜMUNƏDİR



Hindistanın Heydərabad şəhərində keçirilən VIII Qlobal Sahibkarlıq Sammitində iştirak edən və ABŞ prezidentinin qızı və baş müşaviri İvanka Trampın bütün dünyaya nümunə göstərdiyi Reyhan Camalovanın cəmi 15 yaşı var.

ABŞ prezidentinin qızı və baş müşaviri İvanka Tramp Qlobal Sahibkarlıq Sammitindən bir gün sonra da Reyhan Camalova ilə görüşüb.

150 ölkədən 1500 nəfər iştirakçı arasında fərqlənməyi bacaran Reyhan Camalovaya artıq ixtirası ilə bağlı 5 investordan təklif də gəlib.

Reyhanın ixtira etdiyi "Reynerci" adlı qurğu yağışdan enerji alır. Hazırda alternativ enerji mənbələrinə olan tələbatı nəzərə alsaq, bu ixtiranın daha çox marağa səbəb olacağını güman etmək olar.

Reyhan Camalova gələcəkdə tanınmış elm adamı olmağı və nüfuzlu "Nobel" mükafatı qazanmağı düşünür.

## 10 MİN DOLLAR PUL TAPIB SAHİBİNƏ QAYTARAN ŞƏXS SÜRPRİZLƏ QARŞILAŞDI

ABŞ-da yaşayan Elmer Alverez adlı şəxs küçədə 10 min dollarlıq çek tapıb.

Elmer Alverez çeki sahibinə qaytarmaq qərarına gəlib.

Çekin sahibi Robert Hoskie adlı qadın isə Elmerin evsiz olduğunu öyrəndikdən sonra ona bu nəcib hərəkətinin qarşılığında ev hədiyyə edib.

İş qadını olan Hoski bildirib ki, onun özü də bir zamanlar evsiz olub: "Mənə də həyatımı düzəltmək üçün bir nəfər kömək etmişdi. Mən də o zaman evsiz idim. Elmerin iş sahibi olması üçün ona yardım edəcəm. O, bu qış küçədə qalmayacaq. Artıq onun da evi var".



## HEYVANIN FAYDALARINDAN YARARLANMAĞA DƏYƏR



Heyvanın tərkibinə A, C və B qrupu vitaminləri ilə kalsium, dəmir, fosfor, mis, kalium, selen, sink və maqnezium kimi minerallar daxildir.

O, çox az yağlı və liflərlə zəngin bir meyvədir.

Heyvanın tərkibinə çox güclü antioksidantlar olan polifenolik birləşmələr daxildir. Bu birləşmələr sərbəst radikallarla mübarizə aparıb, qocalma prosesini ləngidir. Eyni zamanda bu birləşmələr ürək-damar xəstəliklərinə və iflic riskinə qarşı qorumanı təmin edirlər. Heyva balla qarışdırılıb istehlak edildikdə kolit, bağırsaq infeksiyaları və qəbizlik əleyhinə güclü vasitəyə çevrilir.

Mütəxəssislər heyvanın daşıdığı güclü antioksidantların xərçəng hüceyrələrini məhv etdiyini və heyva suyunun stresslə mübarizə apardığını söyləyirlər. Heyva həmçinin, ürək bulanması və qusmanın qarşısını alır.

Yaponiyada aparılan bir araşdırmada heyva qabığındakı anti-viral maddələrin Hepatit A, B və C-nin yaranmasına səbəb olan orqanizmlərin böyüməsinin qarşısını aldığı bildirilir.

Çin təbabətində heyva qabığı xüsusilə yaraların müalicəsində, sümük toxumasının iltihabını və hətta boğaz ağrılarını müalicə etmək məqsədilə istifadə edilir.

## GÜRCÜSTAN DİN: QARABAĞ RƏSSAMLARININ SƏRGİSİ ŞƏXSİ TƏŞƏBBÜSDÜR

Gürcüstan Xarici İşlər Nazirliyindən bildiriblər ki, Qarabağ rəssamlarının sərgisinin təşkili şəxsi təşəbbüsdür və onun təşkil olunmasına dövlət qurumları qatılmayıb.

Bir qədər əvvəl Azərbaycanın Gürcüstandakı səfirliyi Tbilisidə "Dirçəliş" adı altında Dağlıq Qarabağdan yeddi gənc rəssamın işlərinin təqdim olunduğu sərginin açılışı ilə bağlı müvafiq dövlət qurumlarına müraciət edərək, narahatlığını bildirmişdi.

Sərgi Erməni apostol kilsəsi yeparxiyası nəzdində "Ayartun" mərkəzində açılıb və dekabrın 20-dək davam edəcək. Tədbir Ermənistanın Diasporlar Nazirliyi, "Tekeyan mərkəzi" fondu və "Şuşa şəhərinin muzeyləri"nin dəstəyi ilə keçirilir.

Gürcüstan DİN-də bildiriblər: "Gürcüstan Dağlıq Qarabağın müstəqilliyini tanımır və münaqişənin dinc yolla tənzimlənməsinə tərəfdardır. Bizim məlumatımıza görə, sərgidə Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə xələl gətirəcək hər hansı işarə yoxdur. Konkret sərgiyə gəlincə, o, şəxsi təşəbbüsdür, onun təşkil olunmasına dövlət qurumları qatılmayıb".

## 2017-Cİ İLDƏ DƏNİZDƏ ÜÇ MİN MÜHACİR BATIB



2017-ci ildə Avropa sahillərinə can atan azı 3033 qeyri-leqal mühacir və qaçqın Aralıq dənizində bataraq həlak olub.

Bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı (The International Organization for Migration) məlumat yayıb.

"İllərlə bu barədə danışmışıq və danışmağa davam edirik: bu faciəvi statistikanı qeydə almaq yetərsizdir. Biz fəaliyyətə başlamalıyıq", - deyə təşkilatın baş direktoru Uilyam Leysi Svinq qeyd edib.

Bununla yanaşı, 2017-ci ildə ölüm halları 2016-cı ilə nisbətən 40 faiz azalıb. Ötən il Aralıq dənizində 5 min ölüm faktı qeydə alınmışdı.

Qeyd edək ki, cari ildə Avropaya 164 min nəfərə yaxın insan gəlib ki, bu da ötən illə müqayisədə təxminən iki dəfə azdır. Xatırladaq ki, ötən il bu göstərici 348 min nəfər olmuşdur.

Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına görə, 2015-ci ildən bəri ümumilikdə 1,5 milyon nəfərdən çox mühacir Avropa ərazisinə keçməyə nail olub.

## ŞOTLANDİYADA İLK ÜZƏN KÜLƏK ELEKTRİK STANSİYASI FƏALİYYƏTƏ BAŞLAYIB



Norveçin Statoil şirkəti Masdar ərəb şirkətilə birlikdə Şotlandiyada dünyada ilk üzən Hywind külək elektik stansiyasını işə salıb. Norveç şirkətinin məlumatına görə, 30 meqavat gücündə yeni stansiya sahildən 25 kilometr aralı açıq dənizdə işə salınıb. Stansiya Piterxed şəhərinin enerji sisteminə elektrik verməyə başlayıb.

Mövcud texnologiya külək generatorlarını sahildən uzaqda, 60 metr dərinlikdə quraşdırmağa imkan vermir. Hywind-də istifadə olunan üzgəclər isə bu cür generatorları 800 metr dərinlikdə yerləşdirməyə imkan verir. Belə texnologiya dənizə çıxışı olan ölkələr üçün suda çox sayda generatorlar quraşdırmağa imkan yaradacaq.

Şotlandiyanın üzən külək elektrik stansiyası beş külək generatorundan ibarətdir. Onların hündürlüyü 175 metr, çəkisi isə 12 tondur.

Generatorların dor ağacı 78 metr uzunluğu olan üzgəclər üzərində quraşdırılıb. Bu üzgəclər suyun altında 60 ton ağırlığında yük bərkidilmiş üç tros vasitəsilə sabitliyini saxlayır.

Hywind-dən savayı hal-hazırda üzən elektrik stansiyaları ABŞ-ın Men ştatı sahillərində, habelə İspaniya sahillərində də inşa olunur.

Təsisçi: "Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor: Afiq Muxtaroğlu
Yayım Direktoru: Hacı Bəkiroğlu

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 595 92 25 70
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.